**Şəkidə fəaliyyət göstərən restoranda keçirilmiş yoxlamaya dair məlumat**

**(13 noyabr 2023)**

Daxil olan müraciət əsasında Qida Təhlükəsizliyi Agentliyinin əməkdaşları tərəfindən Şəki şəhəri B.Vahabzadə küçəsi, Kiş yolunda fəaliyyət göstərən, fiziki şəxs Əliyev Namiq Mabud oğluna məxsus "Bənövşə" restoranında plandankənar yoxlama keçirilib.

Baxış zamanı ictimai iaşə müəssisəsində sanitar-gigiyenik qaydalara əməl edilmədiyi, temperaturun monitorinq və qeydiyyatının aparılmadığı, müvafiq təmizlik işlərinin həyata keçirilmədiyi, işçi heyətin xüsusi geyim forması ilə təmin edilmədiyi və digər nöqsanlar müəyyən olunub.

Aşkar edilmiş nöqsanlarla bağlı müəssisədə işlərin görülməsinə, xidmətlərin göstərilməsinə dair məhdudlaşdırıcı tədbirlərin tətbiqi barədə qərar qəbul olunub və sahibkarlıq subyekti inzibati məsuliyyətə cəlb edilib.